# “Bakıya qələbə üçün gəlmişik”




**Azərbaycan müstəqillik illərində beynəlxalq tədbirlərin böyük uğurla keçirildiyi sülh məkanına çevrilib. Ölkəmiz 2016-cı ildən Formula 1 yarışlarına da peşəkarlıqla ev sahibliyi edir. 2020-ci ildə koronavirus pandemiyasının yayılması ilə əlaqədar Bakıda yarışlar təxirə salınsa da, bu il pandemiyanın sürətinin zəifləməsi yarışların keçirilməsinə imkan verib. Odur ki, son vaxtlar Formula 1 yarışlarının təşkilatçısı “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti ciddi çalışmalar nəticəsində yürüşə hazırlığı böyük uğurla başa çatdırıb. İyunun 4-dən etibarən Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Formula 2 yarışı başlayıb və Bakı şəhər halqasında sərbəst yürüşlər keçirilib.**

**“Campos” komandasından Ralf Boşunq Bakl treki ilə bağlı fikirlərini bölüşərkən bildirdi:**

– İyunun 4-də Bakıda Formula 1 üzrə dünya çempionatının altıncı – Azərbaycan Qran-Pri yarışlarına start verildi. 10 komandadan 20 pilotun birincilik uğrunda mübarizə apardığı yarış trekinin uzunluğu 6 kilometrdir. Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları – Luis Hemilton, Fernando Alonso, Sebastyan Fettel, Valtteri Bottas və digərləri yarışırlar.

Artıq yarışlara Formula 2 üzrə sərbəst yürüşlə start verilib. Yürüşdə hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. Qırx beş dəqiqə davam edən yarışda “Hitech Grand Prix” komandasının estoniyalı pilotu Jüri Vips bütün rəqiblərini üstələyərək birinci olub.

Mən “Campos” komandasının pilotu olaraq sərbəst yürüşü ikinci, “Art Grand Prix”un sürücüsü Theo Pourçaire isə üçüncü yerdə başa vurduq.

Eyni zamanda, yarışın sıralanma turu keçirildi. “Hitech Grand Prix” komandasının pilotu Liam Layson sıralama turunun qalibi olub. L.Laysonun komanda yoldaşı Jüri Vips ikinci, “Prema Racing” komandasının pilotu Oskar Piastri isə üçüncü yeri tutublar.

İyunun 5-də saat 11:25-də Formula 2-də birinci, saat 17:40-da isə ikinci yarış keçirildi. Hər iki yarışda pilotlar 21 dövrə vurdular. Üçüncü yarış isə iyunun 6-da saat 12:45-də start götürəcək. Bu dəfə pilotlar 29 dövrədən ibarət yarışda güclərini sınayacaqlar.

Onu da qeyd edim ki, səkkiz mərhələdən ibarət yarışa dekabrın 10-12-də Əbu-Dabidə yekun vurulacaq. Bakı yürüşünə qədər keçirilmiş iki yarışın nəticəsinə görə, pilotların sıralamasına “UNİ-Virtuosi” komandasının çinli üzvü Guanyu Zhou 68 xalla başçılıq edir. Komandaların sıralamasında isə “Uni-Virtuosi” 97 xalla birincidir.

Biz iyunun 4-də və 5-də Azərbaycan tamaşaçılarının yarışlara böyük maraq göstərdiyinin şahidi olduq. Bununla yanaşı, Azərbaycan rəhbərliyinin tədbirin təşkilinə böyük dəstək göstərdiyini xüsusilə vurğulamaq istəyirəm. Bu dəstəyin nəticəsidir ki, yarış yüksək səviyyədə davam edir. Buna görə Azərbaycan rəhbərliyinə, eləcə də hər bir azərbaycanlı azarkeşə minnətdarlığımı çatdırmaq istəyirəm. Əlbəttə, biz işrirakçıların hər biri Bakıya qələbə dalınca gəlib. Qələbəmizi isə, təbii ki, azarkeşlərin göstərdiyi diqqət təmin edir. Bu baxımdan, Bakıda qələbə arzusu ilə yarışlara qatılmışam. Görək nəticə necə olur.

***Paşa ƏMİRCANOV, “Xalq qəzeti”***

Xalq qəzeti.-2021.- 6 iyun.- S.4.